# "Ağ qızıl"ın unudulan şöhrəti geri qaytarılır

Bu yerlərdə pambıqçılıq insanların zaman-zaman "çörək ağacı" olub. Nəsillər bir-birini əvəz etdikcə, bu dədə-baba sənətini ən qiymətli estafet kimi övladlarına ötürüb, bu sənətdən bərk yapışıb onun qədrini bilməyi tövsiyə ediblər. Elə bu səbəbdən də ölkənin Mərkəzi Aran bölgəsində, Mil-Muğan torpağında əkinçin adamları pambığın öz həyatlarındakı əvəzsiz əhəmiyyətini yüksək qiymətləndirib onu fəxrlə "ağ qızıl" adlandırıblar. Təəssüf ki, son illərdə pambıq əkini arxa plana keçmişdi. İndi el arasında deyildiyi kimi pambıqçılıq yenidən özünə "yaşamaq hüququ" qazanmışdır.

İndi tarlalarda qızğın iş gedir. Pambıq səpininin qaynar dövrüdür. Fermerlər pambıq emalı zavodları ilə müqavilələr bağlayır, öhdələrində olan texnikanı işə salır, ehtiyac olanda "Aqrolizinq" ASC-nin yerlərdəki "Aqroservis" filiallarına müraciət edirlər. Sabirabad və Saatlı rayonlarında pambıq əkini sözün əsl mənasında yüzlərlə ailənin təxirəsalınmaz qayğısına çevrilmişdir. Saatlı rayonunda "ağ qızıl"ın hətta nəzər-diqqətdən kənarda qaldığı illərdə də öz fəaliyyətini dayandırmayan **"Şamo" MMC-nin direktoru Yaşar Hüseynovla** görüşüb söhbət edirik. O dedi:

—Dövlətimizin pambıqçılığa göstərdiyi diqqət fermerlərə özlərinin dediyi kimi ilham mənbəyi olmuşdur. "Şamo" MMC-nin zavoduna müraciət edənlərin sayı gündən-günə artır. İndiyə kimi 405 nəfər fermerlə müqavilə bağlamışıq. 2 min hektarda çiyid səpini aparacağıq. Qısa müddətdə 750 hektar sahədə əkini başa çatdırmışıq. Hava şəraiti imkan versə, bir neçə iş günü ərzində əkinə yekun vuracağıq. Yeri gəlmişkən deyim ki, əvvəlki illərdə olduğu kimi fermerlər yenə də tərəfimizdən qayğı ilə əhatə olunmuşlar. Müqavilə bağladığımız fermerlərə 250 min manat avans vermişik. Texnika sarıdan da imkan daxilində köməkliyimizi əsirgəmirik.



Yaşar müəllim bir arzusunu da əlaqədar qurumların nəzərinə çatdırmağı xahiş edir:

—Pambıqçılığın inkişafı bu gün prioritetdir. Tək bizdə deyil, digər qurumlarda da fermerlər müqavilə yolu ilə yüz hektarlarla sahədə əkin aparırlar. Səpin və becərmə işlərində texnika sarıdan korluq olmayacaq. Yığım vaxtı çətinliklə üzləşə bilərik. Ölkədə pambıq yığan kombaynlara ehtiyac var. Əlaqədar təşkilatlar indidən bu ehtiyacların ödənilməsi barədə tədbir görsələr, gələcəkdə üzləşəcəyimiz problemlər aradan qaldırılar.

**Elburus Məmmədbəyov, "ÇTS Agro" MMC-nin Nizamikənd Pambıq İstehsalı və Qəbulu məntəqəsinin direktoru:**

—Hər şeydən əvvəl, məntəqəmizin yerləşdiyi Sabirabad rayonundakı Nizamikənd barədə bir neçə kəlmə demək istəyirəm. Bu kənddə əhalinin əsas məşğuliyyəti pambıqçılıq olub. Sovet dövrünün əmək qəhrəmanı Gülabba Xəlilov bu kənddə yaşamış, uzun illər burada kolxoz sədri vəzifəsində çalışmışdır. Kolxoz o dövrdə ən iri pambıqçılıq təsərrüfatlarından idi. Qonşu kəndlər — Qarağac, Minbaşı, Qaratuğay, Yaxa Dəllək, Çöl Dəllək, Poladtoğay və başqa kəndlər rayonda, eləcə də respublikada pambıqçılıqda əldə etdikləri yüksək göstəricilərlə tanınıblar. Sevindirici haldır ki, adını çəkdiyim və çəkmədiyim kəndlərin fermerləri yenə də öz dədə-baba peşələrini davam etdirirlər. Məntəqə 180 nəfər fermerlə müqavilə bağlamışdır. Hava şəraiti əlverişsiz olsa da 800 hektarda əkin işi görmüşük. Bu il 3740 hektarda məhsul becərməyi nəzərdə tutmuşuq.

Bütün bunlara baxmayaraq, texnika sarıdan qarşıya çıxan çətinliklər də az deyil. Hazırda rayonda mövcud texnika imkanları nəzərdən keçirilir. Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov kollektivimizə köməklik edir, texniki vasitələrə olan ehtiyacımızın ödənilməsinə yardımçı olur.

**Hazırladı:**
**Tofiq HÜSEYN,**
**"Respublika".**